**MƏTBUAT ÜÇÜN AÇIQLAMA**

# ATİB nümayəndəsi Parisdə beynəlxalq konfransda iştirak etdi

**No: 09/17/96**
**06.04.2009**

Azərbaycan Türkiyə İş Adamları Birliyi (ATİB) Layihələr və Tədqiqatlar Şöbəsinin Müdiri Kənan Aslanlı Qara dəniz və Xəzər dənizi İş Adamları Konfederasiyaları Birliyinin (UBCCE) nümayəndə heyətinin tərkibində Fransanın paytaxtı Paris şəhərində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) “Avrasiya Rəqabətlilik Proqramı” çərçivəsində “Cənubi Qafqaz və Ukrayna Təşəbbüsü”nün təsdiqlənməsinə həsr olunmuş Nazirlər Konfransında iştirak etmişdir.

Təşəbbüsün məqsədi Cənubi Qafqaz ölkələri və Ukraynada (müşahidəçi ölkə qismində Modova da çıxış edir) biznes və investisiya mühitinin yaxşılaşdırılması, xarici investisiya axınının artırılması, ölkələr üzrə müvafiq investisiya siyasətinin təkmilləşdirilməsi üçün OECD, region ölkələrinin hökümətləri, beynəlxalq donorlar, regional iqtisadi təşkilatlar və özəl sektor təmsilçiləri arasında real əməkdaşlığın gücləndirilməsidir. Qeyd edək ki, bu çərçivədə birgə sektoral işçi qrupları yaradılması, sabibkarların və hökümətlərin fikirlərinin öyrənilməsi, investisiya siyasətinin və rəqabət mühitinin təkmilləşdirilməsi istiqamətində tövsiyyələr hazırlanması nəzərdə tutulur.

ATİB nümayəndəsi Kənan Aslanlının OECD “Avrasiya Rəqabətlilik Proqramı”nın rəhbəri cənab Fadi Farra ilə görüşündə isə hər iki təşkilat arasında yuxarıda adıçəkilən təşəbbüs üzrə uzunmüddətli əməkdaşlıqla və ATİB-in Azərbaycanın özəl sektorunun əsas təmsilçisi qismində regional işçi qruplarının işində iştirakı ilə bağlı razılığa gəlinmişdir.

Qeyd edək ki, konfransda Polşa, İsveç, Çex Respublikası, Azərbaycan, Gürcüstan, Moldova və Ukraynadan yüksək ranqlı hökümət nümayəndələri və digər maraqlı tərəflər (UBCCE daxil olmaqla) iştirak etmişlər. İştirakçılar təşəbbüsü dəstəklədiklərini yekdilliklə ifadə etmişlər və sonda yekun bəyanat qəbul edilmişdir.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az
**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**